*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 144-149* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.144*

# "Həyatımdan səhifələr" ədəbi nümunəsinin janr özəlliyi
## *(avtobioqrafiya və ya memuar)*

**Ülvi Mikayılov**
Bakı Dövlət Universiteti. Azərbaycan.
E-mail: ulviaydin.m@gmail.com

**Annotasiya.** Tədqiqatın əvvəlində avtobioqrafiya və ona yaxın olan sənədli bioqrafiya, avtobioqrafik əsər, memuar və gündəliklər müqayisə olunur. Belə qənaətə gəlinir ki, avtobioqrafiya və memuarlar biri-birinə çox yaxın olsa da, birincidə, əsasən, baş verən hadisələrdə müəllif özü iştirak edir. Avtobioqrafiya və avtobioqrafik əsər anlayışları daha çox qarışdırılır. Araşdırmadan belə aydın olur ki, avtobioqrafik əsərlər yazıçı təxəyyülü və gerçək hadisələrin vəhdətində yaranan ədəbi nümunələrdir. Avtobioqrafik əsərlərdə əks olunan gerçəkliklər avtobioqrafizmlər adlanır.
Tədqiqatın gedişində İsa Muğannanın "Həyatımdan səhifələr" ədəbi nümunəsinin janr özəlliyi məsələsi diqqət mərkəzində saxlanılır. Araşdırmalardan məlum olur ki, "Həyatımdan səhifələr" ədəbi nümunəsi İsa Muğannanın doğuluşu hadisəsi ilə başlayır. Müəllif ədəbi nümunədə baş verən hadisələrdə birbaşa özü iştirak edir. Avtobioqrafiyada yazılanlar müəllifin dilindən nəql olunur. İsa Muğanna avtobioqrafiyanın gedişində yaradıcılıq fəaliyyətində qarşılaşdığı çətinliklər, yaşadığı müəyyən xoş məqamları da əks etdirmişdir. Ədəbi nümunənin avtobioqrafiya olduğunu deməyə imkan verən məqamlardan biri də ondan ibarətdir ki, müəllif bədii yaradıcılığı haqqında məlumat vermişdir. Avtobioqrafiyada memuarlar (fraqmentar olaraq) yer alsa da, ədəbi nümunə bütövlükdə avtobioqrafiya janrında yazılmışdır.
**Açar sözlər**: İsa Muğanna, "Həyatımdan səhifələr", avtobioqrafiya, memuar, obraz

**Məqalə tarixçəsi:** göndərilib – 05.04.2023; qəbul edilib – 19.04.2023

# Genre characteristics of literature sample "Pages from my life"
## *(autobiography or memoir)*

**Ulvi Mikayilov**
Baku State University. Azerbaijan.
E-mail: ulviaydin.m@gmail.com

**Abstract.** At the beginning of the study, autobiography and what is close to it, documentary biography, autobiographical works, memoirs and diaries are compared. It is concluded that although autobiography and memoirs are very close to each other, in the former, the author himself takes part in the events. The concepts of autobiography and autobiographical work are often confused. It is clear from the research that autobiographical works were literature samples created by the unity of the writer's imagination and real events. The realities reflected in autobiographical works are called autobiographysms.
The issue of the genre specificity of the literature sample "Pages from my life" by Isa Mughanna is kept in focus in the course of the research. The research shows that the literature sample "Pages from my life" begins with the birth of Isa Mughanna. The author participates directly in the events

that take place in the literature sample. What is written in the autobiography is narrated by the author. Isa Mughanna, in the course of the autobiography, reflected the difficulties he came across in his creative activity and certain pleasant moments he experienced.

One of the points that allows us to say that the literature sample is an autobiography is that the author has given information about his artistic creation. Although memoirs (fragmentary) are included in the course of autobiography, the literature sample is written in the genre of autobiography as a whole.

**Keywords:** Isa Mughanna, Pages from my life, autobiography, memoir, image

**Article history:** received − 05.04.2023; accepted − 19.04.2023

## Giriş / *Introduction*

Yaradıcı şəxslərin (xüsusən alim, şair, yazıçı) yaradıcılığı qədər keçdiyi həyat yolu, yaşam tərzi, bütövlükdə, avtobioqrafiyası maraq doğurandır. Avtobioqrafiyaları, əsasən, ictimai insanlar qələmə alır. İlkin olaraq tərcümeyi-hal kimi anlaşılsa da, ictimai şəxslərin qələmə aldığı gerçək həyat hekayələri də avtobioqrafiya adlanır. Bunu belə izah etməyə əsas verən odur ki, ictimai şəxslər ədəbi avtobioqrafiya yazarkən burada yalnız xronoloji hadisələri deyil, yaşadıqlarını ədəbi nümunə halında qələmə alırlar. Avtobioqrafiyalarda publisistik yön özünü daha aydın göstərir. İstisna hallarda yazıçı və şairlərin yazdığı avtobioqrafiyalarda bədiiliyə rast gəlmək olur. Bu janrda yazılan ədəbi nümunələrdə xronoloji ardıcıllıq gözlənilmir. Avtobioqrafiyanın əsas özəlliyi ondadır ki, bu tip ədəbi nümunələrdə müəllif özünü və yaxınlarını gerçək adları ilə əks etdirir və ona yaxın olan janrlar sənədli bioqrafiyalar, memuarlar, gündəliklər və avtobioqrafik əsərlərdir. Avtobioqrafiyalar, əsasən, memuarlar və avtobioqrafik əsərlərlə qarışdırılır. Avtobioqrafiyalarda müəllif başlıca olaraq öz taleyini və özünün iştirakı ilə baş verən hadisələri qələmə alır. Avtobioqrafiyalarla memuarlar bir-birinə daha çox bənzəyir.

Avtobioqrafiyalardan fərqli olaraq, gündəliklər hər gün xronoloji ardıcıllıqla qələmə alınır. Gündəliklər yazıldığı zaman üçün yeni olsa da, müəyyən dönəmdən sonra keçmişi əks etdirir.

Sənədli bioqrafiyaları yazan müəllif hər hansı bir tarixi şəxsiyyətin və ya ictimai insanın gerçək həyatı ilə özünün bədii təxəyyülünü vəhdətdə təqdim edir.

Avtobioqrafik əsər və avtobioqrafiyalarda isə məsələ bir qədər fərqlidir. Avtobioqrafik əsər dedikdə, bədii əsər nəzərdə tutulur (şeir, qəzəl, hekayə, povest, roman). Bu kimi əsərlərdə müəllif öz həyatından cizgilərlə bədii təxəyyülünü sintez halında qələmə alır. Yaranan avtobioqrafik obrazlar avtobioqrafizmlər hesab olunur. Avtobioqrafik əsərlərdə yaradılmış avtobioqrafizmlər öz adları ilə verilmir. Müəllif avtobioqrafik surətlərə şərti adlar qoyur. Daha çox qarışdırılan avtobioqrafiya və memuarları fərqləndirmək üçün diqqətçəkən əsas xüsusiyyət odur ki, avtobioqrafiyalarda baş verən hadisələrdə müəllif, əsasən, özü iştirak edir, yaşadıqlarını daha çox qələmə alır. Memuarlarda isə müəllif özünün və tanıdıqlarının yaşadıqlarını yazır. Bəzən avtobioqrafiyaların içərisində də memuarlar yer alır. Avtobioqrafiyalarda hadisələr daha çox dəqiqliyi ilə seçilir. Memuarlarda isə baş verənlər adından göründüyü kimi, xatırlandığı qədər, yəni xatirə olaraq təqdim olunur.

## Əsas hissə / *Main Part*

Ümumən Azərbaycan ədəbiyyatında hələ qədim dövrlərdən avtobioqrafik əsərlər meydana gəlmişdir. Xaqani Şirvaninin, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin əsərlərində avtobioqrafik lövhələr yer almışdır. O dönəmdə yaradılan avtobioqrafik surətlərlə XX əsrdə yaradılmış avtobioqrafik obrazlarda müəyyən fərqli nüanslar vardır. Xaqani

Şirvaninin və Nizami Gəncəvinin yaradıcılığında əks olunan avtobioqrafizmlər bir növ avtobioqrafiya təsiri bağışlayır. XX əsrdə yaradılan avtobioqrafik obrazlar isə tam aydın şəkildə təqdim olunmur, bir növ kodlaşmış surətlər xarakteri bağışlayır. Professor Vaqif Sultanlı yazır: *"Azərbaycan ədəbiyyatşünaslığında nəzəri-tənqidi və elmi-bioqrafik faktlarla zəngin olan bir sıra təzkirələr yaranmışdı. Bu təzkirələr içərisində Əhdi Bağdadinin "Gülşənüş-şüəra", Seyid Əzim Şirvaninin "Təzkireyi-Seyid Əzim", Mir Mövsüm Nəvvabın "Təzkireyi-Nəvvab", Məhəmməd ağa Müctəhidzadənin "Riyazül-aşiqin", Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" təzkirələri xüsusi yer tutur"* [10, s.15].

Göründüyü kimi, avtobioqrafiya janrı Azərbaycan ədəbiyyatında uzun zamandan bəri özünü göstərməkdədir. Lakin bu janrın tədqiqi Azərbaycan ədəbiyyatşünaslığında son 30 ildə təşəkkül tapmağa başlamışdır.

Avtobioqrafiyaların əhəmiyyəti ondadır ki, avtobioqrafik əsərlərin tədqiqində yazılan bu tip ədəbi nümunələr (avtobioqrafiyalar) tədqiqatçı üçün əsas mənbə rolunu oynayır. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan İsa Muğanna "Həyatımdan səhifələr" adlı avtobioqrafiyasını qələmə almışdır. İsa Muğannanın bədii nəsrində avtobioqrafizm yaradılışı ənənə halına çevrilmişdir. Ədib avtobioqrafik obraz yaradılışını qələmə aldığı ilk ədəbi nümunəsindən başlayaraq, bu ənənəni bütün əsərlərində davam etdirmişdir. Bu baxımdan da yazıçını avtobioqrafik əsərlər müəllifi kimi xarakterizə etmək olar. Avtobioqrafiyalar, əsasən, müəllifin uşaqlıq dönəmindən başlayaraq sonrakı dövrləri də özündə ehtiva edir. Memuarlardan avtobioqrafiyaları fərqləndirən cəhətlərdən biri də elə budur. Avtobioqrafiya və memuarla bağlı bir sıra alimlərin fikirləri vardır. Ədəbiyyatşünas alim N.Səmədova yazır: "Çox vaxt avtobioqrafik əsərlərlə memuar əsərlərini qarışdırırlar. Tanınmış adamların öz həyat və fəaliyyətlərini ədəbi üslubda qələmə alması avtobioqrafiya adlanır" [9, s.12]. Digər bir fikir isə avtobioqrafiya janrının tədqiqatçılarından olan Ş.Dadaşovanın qənaətidir. Ş. Dadaşovanın qənaətinə görə, "Avtobioqrafiya daha çox daxilə baxışdır və tipik olaraq müəllifin ətrafında dövr edir" [3, s.227]. Tədqiqatçıların da qeyd etdiyi kimi, avtobioqrafiyalarda müəllif, əsasən, özünün iştirakı ilə baş verən hadisələri qələmə alır. Xalq yazıçısı İsa Muğanna "Həyatımdan səhifələr" adlanan avtobioqrafiyasında da uşaqlıq illərindən başlayaraq sonrakı dönəmləri də qələmə almış, yazıçılıq fəaliyyətində qarşılaşdığı çətinlikləri və ömrünün xoş məqamlarını da əks etdirmişdir. "Həyatımdan səhifələr" ədəbi nümunəsinin avtobioqrafiya olmasını təsdiq edən birinci məqam buradan başlayır. "Bu əhvalat 1928-ci ildə, iyunun on ikisində olub. Qazax qəzasının Muğanlı kəndinin camaatı yol azuqələrini arabalara doldurub "Göyqılınc" yurduna yola düşəndə Qarayazı meşəsinin ortasından keçən qədim karvan yolunda bir hadisə baş verib. Yetər nənə və yaxın qohumumuz Hilal xala xeymədə oturub gözləməyə başlayıblar. Həmin anda xeymədən çağa hıçqırtısı eşidilib. Hilal xala sevinclə xeymədən eşiyə atılıb, deyib: – Gözün aydın, ay Omar ağa, İsa əfəndi gəldi. İsa əfəndi mənim doğuluşumdan səkkiz il əvvəl dünyasını dəyişmiş əmim idi" [6, s.15-16]. Yazıçının avtobioqrafiyasından məlumdur ki, atası Mustafa Hüseynov, babası Omar ağa olmuşdur. Müəllif ədəbi nümunənin gedişində atası, babası, əmiləri haqqında məlumat vermişdir. Atasının Böyük Vətən müharibəsində iştirakından bəhs etmişdir. Nasir uşaq yaşlarında olarkən ailə üzvlərinin onu adı ilə deyil, başqa adla çağırmalarını belə göstərirdi ki, əmisi İsa əfəndi erkən dünyasını dəyişdiyindən, babası Omar ağa və digərləri onu İsa yox, Şalloy çağırardı. Körpəni kim İsa adı ilə çağırsa idi, Omar ağa onu çomağı ilə vurarmış. İsa Muğanna müharibə dövründə yaşadığı ağrı-acıları da yazdığı avtobioqrafiyada əks etdirmiş, dayısı Niyazinin onlara kömək etdiyini vurğulamışdır. Yazıçı yazılarında, müsahibələrində qeyd edirdi ki, əsasən, yaşadıqlarını və görüb-eşitdiklərini yazır. Bir vaxt Mehdi Hüseyn, onu atasından yazdığına görə tənbeh edəcəyini bildirərkən, Muğanna atasını yaxşı tanıdığını vurğulamışdır. "Həyatımdan səhifələr" avtobioqrafiyasını yazmadan illər öncə "Ömrümdə izlər" (tərcümeyi-hal əvəzində) adlı yazısında da fikirlərinə belə aydınlıq gətirmişdir. "Düşüncələrdən kitablar əmələ gəlir; bu günə qədər nə yazmışamsa, hətta tarixi mövzuda təcrübə etdiyim yazılar da öz

tərcümeyi-halımdan doğulmuşdur" [7, s.428]. Yazıçının qızı S.Muğanna son müsahibələrinin birində atasının yaradıcılığı ilə bağlı bu fikirləri qeyd etmişdir. "Onun bütün yaradıcılığı avtobioqrafikdir, amma soruşanda çox vaxt sükutla keçirdi üstündən. Oxucular bu obrazlarda öz bildikləri, tanıdıqları birini görürdülər və atamın da istəyi elə bu idi" [8, s.4]. İsa Muğanna əsərlərində avtobioqrafik surətləri canlandırmaqla yaşadığı dövrü geniş mənada oxucusu ilə bölüşmüşdür. "Həyatımdan səhifələr" adlı avtobioqrafiyasını qələmə almaqla nasir əsərlərinin avtobioqrafik yöndən tədqiqinə kömək etmiş oldu. Ədəbi nümunənin gedişində Mustafa Hüseynovun həlak olması hadisəsi də yer almışdır. "İdeal" romanını oxuyan oxucuya məlumdur ki, yazıçı romanda Mədəd Əmirlinin ölüm faktı ilə atası Mustafa Hüseynovun ölümünü demək olar ki, eyniləşdirmişdir. Mədəd Əmirli Mustafa Hüseynovun avtobioqrafik obrazı kimi canlandırılmışdır. İsa Muğannanın əsərlərində avtobioqrafik surətlər yaratması, bir tərəfdən, yaşadıqlarını və dövrünün təsvirini bədii ədəbiyyatda əks etdirməkdirsə, digər tərəfdən, şəxsiyyət və yaradıcılığın tamlığının göstəricisidir. "Realist ədəbiyyat həyatı və insanı mövcud sosial mühitin içərisində təsvir etməklə onu dərindən bütün yönləri ilə dərk etməyə şərait yaradır" [2, s.157]. İsa Muğannanın əsərlərində də gerçək həyat daha çox təsvir olunurdu. Nasir avtobioqrafiyasında ona qarşı olan təqiblərdən və dayaq duran şəxslərdən də yazmışdır. Muğanna yaşadıqlarını yazmaqla göstərirdi ki, "Həyatımdan səhifələr" ədəbi nümunəsi memuar yox, avtobioqrafiya janrında qələmə alınmışdır. Yazıçılardan Mehdi Hüseyn və Mirzə İbrahimov İsa Muğannaya daha çox qayğı göstərmişdilər. İclasların birində Mirzə İbrahimovun onu necə müdafiə etdiyi barədə yazır: "Mirzə İbrahimov balacaboy adam idi. Amma xitabət kürsüsünə çıxanda elə sözlər dedi ki, mənim nəzərimdə boyca da böyüyüb, pəhlivana çevrildi. Zal dolusu qışqırdı ki:

– Nə istəyirsiz?! Əsərlərini ürəyinin qanı ilə yazıb. Realist qələm məhsuludur. Realizm nə vaxtdan qadağan olunub?! Mehdi Hüseyn onu sizə qarşı qoymayıb, siz özünüzü onlara qarşı qoymusuz!" [6, s.59].

Bilindiyi kimi, İsa Muğanna sovet rejiminin qadağalarına bir o qədər də məhəl qoymurdu. Baş verən hadisələri olduğu kimi yazmağa çalışır, müəyyən məqamlarda elə bu üzdən də avtobioqrafizmlərdən yararlanır, özünün yaşayıb-gördüklərini bədii ədəbiyyatda canlandırırdı. Yazıçının başlıca istəyi, olanları olduğu kimi cəmiyyətə çatdırmaq idi. Ədib müəyyən mənada istəyinə nail olurdu. Mirzə İbrahimovun da qeyd etdiyi kimi, İsa Muğanna realist yazıçı olmaqla bərabər, həm də düşüncəsinə, təxəyyülünə arxalanan qələm sahibi idi. Yazıçı avtobioqrafiyasında yaradıcılığı haqqında da məlumat vermişdir. "Nəsimi" filminin çəkilişləri zamanı qarşılaşdığı çətinliklər, ssenarinin yazılmasının Ümummilli lider Heydər Əliyev tərəfindən ona (İsa Muğannaya) tapşırılmasından bəhs etmişdir: "1971-ci ildə mənə Mərkəzi Komitədən zəng vuruldu. Dedilər Heydər Əliyev səni çağırır. Sevincək getdim və qəbul otağına girəndə sevincim daha da artdı. Ulu öndər məni güləruzlə qarşıladı və dərhal mətləbə keçib, Nəsimi haqqında ssenarini sənə tapşırıram dedi: Sonra əlavə etdi, bilirsən də bu, dövlət sifarişidir. Filmin çəkilişlərinə nə qədər pul lazımdır, o qədər pul buraxılacaq" [6, s.64]. Nasir Nəsimi haqqında özünün dediyi kimi, heç nə bilməsə də, Xalq şairi Rəsul Rzanın Hələbdən gətirdiyi materialları oxuyub-araşdırmış və Nəsiminin şəxsiyyəti və yaradıcılığı ilə yaxından tanış olmuşdur. Ssenarini bir qədər yazdıqdan sonra filmin rejissoru Həsən Seyidbəyliyə oxuyan Muğanna ondan, "yaxşıdır", – cavabını alıb az da olsa, rahatlanmışdır. İsa Muğanna "Nəsimi" filminin ssenarisini qələmə aldıqdan sonra "Məhşər" romanını yazdı. Filmin çəkilməsi və əsərin yazılması Nəsiminin Azərbaycan şairi olması fikrini daha da möhkəmləndirərək bir daha təsdiqlədi.

Avtobioqrafiya yazan müəllifin kənardan özünü müşahidə qabiliyyəti yüksək olmalıdır. Öz həyatını, bütövlükdə daxili aləmini oxucuya təqdim edən qələm sahibi bir növ yaşadıqlarını ictimailəşdirməklə cəsarətini də nümayiş etdirir. Özünü tanımanın yüksək səviyyəsi olduğu halda, avtobioqrafiyalar da mükəmməl şəkildə qələmə alınır. Bununla bağlı professor Mətanət Abdullayeva yazır: "İnsanın öyrəndiklərinin içərisində əldə etdiyi ən böyük uğuru özü ilə tanışlığıdır. Hər kəsdə özü ilə tanışlıq müxtəlif səviyyələrdə baş verir və o, müxtəliflik oriyentirlərin məzmunu ilə bağlıdır. Oriyentirlər sosi-

al mühit, milli adət-ənənələr, ictimai vəzifə, siyasi əqidə, dini baxış və s. və i.a. ola bilər" [1, s.9]. Məlum olduğu kimi, İsa Muğanna psixoloji cəhətdən özünü yaxşı dərk edir, bu baxımdan da müəllifin yazdığı avtobioqrfaiyada psixoloji məqamlar özünü aydın göstərmişdir. Muğanna avtobioqrafiyasını qələmə almaqla, cəmiyyətin ona olan münasibətini qismən də olsa, təhlil etməyə çalışmışdır. Yazıçı avtobioqrafiyasını geniş şəkildə deyil, yığcam halda oxucusuna təqdim etmişdir. Əgər İsa Muğanna yaşadıqlarını geniş yazsaydı, onun avtobioqrafiyası bir yox, bir neçə kitabı əhatə edəcəkdi.

Ədib avtobioqrafiyasında "İdeal" və sonrakı əsərlərlə bağlı fikirlərini qeyd etmişdir. Müəllif "İdeal" romanını yazarkən Ün eşitdiyini bildirmişdir. "İdeal" romanından sonra həm yazılma tarixi, həm də ideoloji cəhətdən "Qəbiristan" romanı gəlir. Bu əsərin əmələ gəlməsi də mənim bioqrafiyamla bağlıdır" [6, s.83]. "Qəbiristan" romanında da ədib bioqrafiyasından müəyyən cizgiləri əks etdirmişdir. Roman müəyyən mənada "İdeal"ın davamı kimi də dəyərləndirilə bilər. "Həyatımdan səhifələr" ədəbi nümunəsində İsa Muğanna göstərmişdir ki, yazılan yazı memuar yox, avtobioqrafiya janrındadır. Həyat hekayəsinin gedişində ustad sənətkar öz xəstəliyi ilə bağlı müəyyən fraqmentləri əks etdirmiş, daha sonra "GurÜn" romanının yazılma tarixindən danışmışdır.

Yazıçı müstəqillik illərində yazdığı "Cəhənnəm" romanı haqqında da öz avtobioqrafiyasında məlumat vermişdir. "Cəhənnəm" əsəri SafAğ elmindən bəhs edən romanların davamıdır. SafAğ elminə həsr olunmuş əsərlərdən biri də "Doğma və yad adamların" yeni variantı "İsa-Həq MusaHəq" romanıdır. Birinci variantın yazıldığı vaxtlar (1959-1960) mənim dünyadan xəbərim yoxdu. Yaradıcılığımın SafAğ dövründə məlum oldu ki, nəinki "Doğma və yad adamlar"ın, hətta, "Saz", "Quru budaq" ("Teleqram"), "Kollu koxa" povestlərinin də yeni variantlarını yazmalıyam" [6, s.90]. Məlum olduğu kimi, İsa Muğanna əsərlərini yenidən işləyib, onlara müəyyən əlavələr etmişdir. "İdeal" romanı üzərində müəllif yeddi dəfə işləmişdir. Roman İsa Hüseynov imzası və "Yanar ürək" adı ilə oxuculara təqdim edilmiş, 1985-ci ildə Muğanna imzası ilə tamamlanmış, 1986-cı ildən geniş oxucu kütləsinə təqdim edilmişdir. "İdeal" Muğanna imzasının ilk əsəri olmaqla bərabər, cəmiyyətdə rezonans doğurmağı bacaran ədəbi nümunə olmuşdur. Yazıçının "İdeal"la başlayan dövr yaradıcılığı lazımınca tədqiqata cəlb olunmasa da, ədibin yaradıcılığı ilə bağlı müəyyən dəyərli yazılar vardır. Akademik Tofiq Hacıyev İsa Muğanna yaradıcılığına münasibət bildirərkən qeyd etmişdir: "İsa fanatist deyil, onun yaradıcılığı elmi fantastika deyil. Onun irsində bədiiliyin real elmi kodları var, o kodlara yiyələnmək gərəkdir" [3, s.227]. İsa Muğannanın "İdeal"a qədərki və "İdeal"la başlanan dövr yaradıcılığı bütövlükdə Azərbaycan ədəbiyyatı üçün dəyərli və önəmlidir. "Həyatımdan səhifələr" ədəbi nümunəsi belə qənaətə gəlməyə imkan verir ki, bu həyat hekayəsi avtobioqrafiya hesab oluna bilər. Ədəbiyyatşünas alim Leyla Kamranqızı tədqiqatlarında yazır: "Avtobioqrafiya bir ədəbi janr kimi müəllifin öz həyatını təsvir etməsidir. Bu janr xatirələrə yaxın olsa da, müəllifin şəxsiyyəti və daxili aləmi ilə sıx bağlı olur. Avtobioqrafiyalar, adətən, I şəxsin dili ilə verilir. Nadir hallarda üçüncü şəxsin dili ilə nəql edilə bilər" [5, s.12-13]. Tədqiqatçının bu fikirləri ilə tamamilə razılaşmaq olar və avtobioqrafiyaların gedişində də bəzən xatirələr özünü göstərə bilir.

## Nəticə / *Conclusion*

Aparılan araşdırmalardan belə qənaətə gəlmək olur ki, Xalq yazıçısı İsa Muğannanın "Həyatımdan səhifələr" ədəbi nümunəsində müəllif özünün doğuluşundan başlayaraq, uşaqlıq və gənclik illərini qələmə almış, daha sonra həyatında baş verən hadisələri fraqmentar olaraq əks etdirmişdir. Müəllif ədəbi nümunədə yaradıcılığı haqqında da məlumat vermişdir. Bütün bunları nəzərə alaraq, "Həyatımdan səhifələr" ədəbi nümunəsinin avtobioqrafiya olduğu fikrinə gəlmək olar. Ədəbi nümunəni müəllifin özünün nəql etməsi və hadisələrdə birbaşa iştirakı həyat hekayəsinin memuar deyil, avtobioqrafiya olduğunu təsdiq edir.

**Ədəbiyyat / *References***


1. Abdullayeva, M.Ə. "Öz"ünə qayıdışın fəlsəfəsi / M.Abdullayeva. – Bakı: Vətən, 2014.
2. Azərbaycan ədəbiyyat tarixi: [10 cilddə] / red. hey. İ.Həbibbəyli, M.Qasımlı. – Bakı: Elm, c.1, 2018.
3. Dadaşova, Ş.N. Avtobioqrafiyanın səciyyəvi cəhətləri və janr xüsusiyyətləri // Bakı: Poetika.İzm, 2014.
4. Hacıyev, T.İ. Uzaq səfərlər kapitanı // "Ədəbiyyat qəzeti", 2008, 6 iyun.
5. Kamranqızı, L. Y.V.Çəmənzəminlinin memuarlarında Şuşa mühiti / L.Kamranqızı. – Bakı: Şuşa, 2002.
6. Muğanna, İ.M. Həyatımdan səhifələr (İsa Muğanna xatirələrdə) / İ.Muğanna. – Bakı: Xan, 2018.
7. Muğanna, İ.M. Seçilmiş əsərləri, [6 cilddə] / İ.Muğanna. – Bakı: Avrasiya press, c.2. – 2009.
8. Muğanna, S.İ. Onun bütün yaradıcılığı avtobioqrafikdir // "Ədəbiyyat qəzeti". – 2021, 20 mart.
9. Səmədova, N.Ə. Azərbaycan memuar ədəbiyyatının yaranması, təşəkkülü və inkişaf mərhələləri / Filologiya üzrə elmlər doktoru, dis.avtoreferatı. – Bakı, 2011.
10. Sultanlı, V.S. Azərbaycan ədəbi tənqidi / V.Sultanlı. – Bakı: Azərnəşr, 2009.


## Жанровая характеристика литературного образца "Страницы из моей жизни" *(автобиография или мемуары)*

**Ульви Микаилов**
Бакинский государственный университет. Азербайджан.
E-mail: ulviaydin.m@gmail.com

**Резюме.** В начале исследования сопоставляются автобиография и близко к ней документальная биография, автобиографические произведения, мемуары и дневники. Делается вывод о том, что хотя автобиография и мемуары очень близки друг другу, в первых автор сам принимает участие в событиях. Понятия автобиографии и автобиографического произведения часто путают. Видно из исследования, что автобиографические произведения представляют собой литературные образцы, созданные единством воображения писателя и реальных событий. Реалии, отраженные в автобиографических произведениях, называются автобиографизмами.

В ходе исследования акцентируется внимание на вопросе жанровой специфики литературного образца «Страницы из моей жизни» Исы Муганны. Исследование показывает, что литературный пример «Страницы из моей жизни» начинается с рождения Исы Муганны. Автор непосредственно участвует в событиях, происходящих в литературном образце. То, что написано в автобиографии, рассказано автором. В ходе автобиографии Иса Муганна отразил трудности, с которыми он столкнулся в своей творческой деятельности, и некоторые приятные моменты, которые он пережил. Одним из моментов, позволяющих говорить о том, что литературный образец является автобиографическим, является то, что автор дал информацию о своем художественном творчестве. Хотя мемуары (фрагментарно) включены в курс автобиографии, литературный образец написан в жанре автобиографии в целом.

**Ключевые слова:** Иса Муганна, «Страницы из моей жизни», автобиография, мемуары, образ